ÇİNGİZ DAĞCI

# YURDUNU İTİRƏN ADAM

NƏŞRİYYATI

# Çingiz Dağcı
# Yurdunu itirən adam

*http://www.litres.ru/pages/biblio_book/?art=68475076*
*CtrlSoft;*

## Аннотация

Sadıq Turan həyatının dönüş nöqtəsindədir. Vətəni Türküstanı bolşevik ordusundan azad etmək üçün Almaniya silahlı bölmələrinə qoşulur. Hərbi təlimlər keçib zabit rütbəsinədək yüksəlir. Onun üçün bir müqəddəs məhfum var: vətəni Türküstan. Amma İkinci Dünya Müharibəsi illərində dünyanın siyasi mənzərəsi heç də kiçik xalqların tərəfində deyil. Müharibə dəhşətləri ata-anasının, qardaşı Bəkirin, əsgər yoldaşlarının timsalında ən dəyərli şeyin insan həyatı olduğunu deyir. Bəs fədakar qadın Mariya onun taleyində hansı rola sahibdir? Sadıq Turanı yaşamağa səsləyən daha hansı dəyərlər var?

**Çingiz Dağcı**

**Yurdunu itirən adam**

roman

# I

## Roma

### 03.09.1946

İki həftədir ki, həkimsiz yaşayıram. Həkimin “Mənsiz yaşamağa öyrəşməlisən” dediyi gündən bəri özümü daha miskin və halsız hiss edirəm. Bu, təkcə halsızlıqdırmı? “Nədənsə qorxmusan; canında gizli qorxu var, niyə qorxduğunu tapsaq, səni o qorxudan xilas edərik” – deyə həkim bildirmişdi. Nə vaxt, niyə qorxduğumu bilmirəm. Başımasa nə həkimin köməyi dəyə bilər, nə də başqa bir çarə tapılar. Buna əminəm. Daha doğrusu, buna yavaş-yavaş əmin oldum. Mən həyatın özündən qaçıram – çöldəki həyatdan – insanlar mənim üçün heç bir şey ifadə etmir. Mən onlara aid deyiləm. Bəs, məni onlardan ayıran nədir? Bunu nə mən, nə də həkimim bilir. Həyatda sığınacaq tək yerim var, o da “Xatirələr”dir. Bəs, bu xatirələrimi yazıb qurtarsam, onda necə olacaq?! Yenə də həkimin yanına getmək istəyirəm. Bəlkə, qorxumun səbəbini tapar, məni xilas edər; mən də yenə əvvəlki Sadıq Turan olaram.

### 04.09.1946

Dünən səhər tezdən həkimin evinə getdim. Yox idi. Bir saat dəhlizdə gözlədim. Gəlmədi. Mən də çıxdım. Küçədə görərəm deyə, günortaya qədər evinin qarşısında gəzişdim. Saatlar keçib

getmək bilmirdi! Otelə qayıtdım, nəhayət, otağımın qapısını bağlayıb, göz yaşları içində həkimin məni görmək istəmədiyini anladım.

Bu halım axşama qədər davam etdi. Sonra əhval-ruhiyyəm dəyişməyə başladı. Çöldə Roma küçələri axşamın alatoranına və sərinliyinə bürünürdü. Uşaq kimi dərdimi yaddan çıxardıb, anidən daxilimdə bir sevib-sevilmə ehtiyacı duydum. Birdən-birə həyatın bütün dərd-sərini və qorxularını unudaraq, mən də çölə – küçələrə çıxıb, gülən, həyatdan zövq alan insanlardan biri olmaq istədim.

Deməli, həkim haqlı imiş. Gözlərimi açan, həyatı olduğu kimi göstərən dəqiqələrim yox deyilmiş.

Bəli, dünən axşam həyat məni beləcə qucaqladı. Otel otağından çıxmağa qərar verdim və əməl etdim. Küçələrdə qara, yağlı saçı, əlini-qolunu yelləyə-yelləyə danışan italyanlardan biri kimi məqsədsiz, həm də qorxusuz formada şəhərin mərkəzinə tərəf addımladım. Hətta körpünü də qorxmadan, titrəmədən keçdim. Bundan sonra başım nə qədər ağrısa da, vecimə almayacaq, hamı kimi yaşayacağımı, dünyanı olduğu kimi qəbul edəcəyimi öz-özümə söz verdim.

Şəhərin mərkəzinə yaxınlaşırdım. Küçə lampalarının işıqları altında gənc nərmə-nazik xanımlar qol-qola keçib gedirdilər. Bəzən qaranlıq künc-bucaqlardan gecə dünyasının növbətçi cinləri kimi, ağappaq dişli, qırmızı dilli, zənci amerikan əsgərləri çıxırdı.

Topa-topa qızların, gənc əsgərlərin gəzişdiyi geniş bir

meydana çatdım. Yaxınlıqdakı bağçalı restorandan musiqi səsi gəlirdi. Bağçaya tərəf addımladım: burada daha çox uniformalı gənclər gözə dəyirdi. Ağaclardan sallanan lampaların işığında gənc oğlanlar qızlarla rəqs edirdilər. Bir müddət taleyindən küsmüş kimi, kənarda dayanıb rəqs edənləri seyr elədim. Bağçadan çıxmaq istəyərkən, iki ingilis əsgərinin qolları arasında incə bir səsin hayqırtısını eşitdim. Səs bir qızdan gəlirdi. Qısa boylu, almaz kimi parlaq, qırmızı yanaqlı, qara saçlı, incə belli bir qız idi. Sərxoş əsgərlərin hərəsi qızı bir tərəfə dartışdırırdı. Ətrafındakılar qəhqəhə çəkərək onları izləyirdi. Mən də bunun təkcə əyləncə tərəfini görüb gülürdüm. Bir az sonra qız əsgərlərin qollarından canını xilas edib, yanıma gəldi. Məni əvvəlcədən tanıyırmış kimi üzümə baxaraq, əlini yellədi:

– İngilisi gördün?! Pulu var deyə, zorla rəqs etmək istəyir mənimlə! Mən sənin pulunu…

Deyəsən, məni italyanlarla səhv salmışdı. Odur ki, gah mənə, gah da ingilis əsgərlərinə baxaraq avtomat kimi, dayanmadan italyanca deyinirdi. Mənsə susurdum. Qız yavaş-yavaş gəlib düz qarşımda dayandı. Sakitləşmiş kimi görünürdü.

– Döyüşdə qələbə çaldıq deyə, lap ağını çıxardıblar. Ağıllarına gələni etmək istəyirlər, – deyə axırıncı dəfə deyindi.

Cavab vermək istəyirdim ki, birdən kim olduğumu, keçən il Tirolda əynimdən çıxardıb çaya atdığım uniformanı xatırlayanda ürəyim sıxıldı və təkcə bunu deyə bildim:

– Onlar əsgərdi… Sadəcə bir az əylənmək istəyirdilər.

– Almanlar da əsgər idilər. Onlar da əylənmək istəyirdilər.

Amma əyləncə üçün neçə-neçə canı qurban etdilər!

– Bunu edənlər ancaq almanlardı, sinyorina…

– Bəs bunlar? Guya bunlar mələkdi? Ah, düzdü, bunlar o qədər zalım deyillər, amma mən uniformalı adamları heç sevmirəm!

– Doğrudan?

– Hə, sevmirəm. Olmaya, siz də əsgərsiniz?

– Yox, yox.

– Hər halda, siz də əsgərlikdə olmusunuz, elə deyil?

Bir anlıq nə deyəcəyimi bilmədim. Bir müddət ürkmüş üzümü gizlətməyə çalışdım.

– Amma yox, siz əsgərə oxşamırsınız.

Onun bu sözləri və gözlərindəki məsum parıltı xoşuma gəldi. Güldüm:

– Yox, mən əsgərlikdə olmamışam.

– Bax, bu gözəl oldu… Deyəsən, heç italyan da deyilsiniz.

– Yox.

– Onda fransızsınız.

– Yox.

– Polşalı… Çex?

– Bu dəfə də düz tapmadınız.

– Eee, nə fərqi var ki, italyanlar kimi qarayanızsınız da. Mənimlə rəqs edərsiniz?

Körpə vücudunun bütün yuvarlaqlığıyla qollarımın arasında sinəmə qısılarkən, dünyaya yenidən gəldiyimi hiss etdim. Ömrümün bütün keçib-gedən günlərinə, onunla bərabər bütün

qorxularıma bir təpik vurub kənara tolazladım.

Dilim söz kəsmirdi. Elə bilirdim, danışsam, canımı yenidən bürüyən bu həyat eşqi qəfildən uçub gedəcək. Ağzımı açmağa cəsarətim yox idi. Rəqs edərkən balaca başını sinəmə söykəyərək incə səslə soruşdu:

– Evlisən?

Bir az özümdən danışdım. Dediklərimlə maraqlanırmış kimi üzümə baxırdı.

Saat düz onda restoran bağçasından çıxıb tənha, kimsəsiz, qaranlıq bir küçədə qol-qola, bəzən bir-birimizin əlini, barmaqlarını sıxaraq gəzişdik. Yolda mənə adını dedi: Anna imiş. Yenidən görüşməyə razılaşdıq: bu bazar görüşəcəkdik. Onu yaşadığı evə qədər ötürdüm. İncə vücudu qapının arxasından yox olana qədər üzümdəki uşaqcasına təbəssümlə onu izlədim.

Otel otağında yenə tək-tənha qalmışdım. Amma ürəyimdəki tənhalıq hissinin yerində mənə sevinc və mənəvi rahatlıq gətirən bir duyğu vardı. Sanki ömrüm boyunca yaşadığım bütün baharların ətri otağıma dolmuşdu. Dünən həkimin evinin qarşısında var-gəl edən Sadıq Turanla indiki Sadıq Turanı bir-birindən qərinələr, əsrlər ayırırdı. Tavandan sallanan lampanın işığında qaçıb dolabda gizlənmiş "Sadıq Turanın xatirələri" – keçmiş barəsində düşünürdüm. Gözümü yumub gələcək günləri xəyal edirdim. Oturub yeni romanımı yazmaq istəyirdim. Açıq pəncərədən gecənin tilsimli ənginliyinə baxaraq, bazar gününü, eləcə də incə donunun içərisində gənc, həyat dolu, qara saçları

çiyinlərinə tökülmüş Annanı gözləyirdim.

**07.09.1946**

Sevincim qısa çəkdi. Mənim üçün həyat köhnə ağrıları ilə yenidən başladı.

Nəhayət, bazar axşamı yetişdi. Bağçalı restorana getdim, amma Anna yox idi. Gözlədim, gəlmədi. Gecə yarısına qədər küçələrdə sərxoş əsgərlərin arasında Annanı axtardım. Küçə lampalarının işığında hər gördüyüm incə belli qadını Anna ilə səhv saldım. Əsl Anna isə heç yerdə yox idi. O, məni aldatmışdı. Taleyim kimi Anna da dəcəl küçə uşağının kor dilənçinin qabına pul əvəzinə, daş qoyması sayaq məni aldatmışdı.

Artıq adamlar qaranlıq dalanlardan qarşıma çıxaraq, qara damların nohurlarından əyilərək, qadınlar sərxoş əsgərlərin qolları arasından dil çıxardaraq, əllərini qulaqlarının dibinə qoyub qəhqəhə çəkərək mənə gülürdülər. Artıq Annanı axtarmırdım. Axtarmayacaqdım da. Mən onlardan biri deyildim. Qarşılaşsam da Annaya inanmayacaqdım. Həmin axşam mənə nə olmuşdu? Kim idim mən? Xilaskarımı tapmış kimi Annanın arxasınca sürünüb ayaqlarından öpməyə hazır idim. O, kim idi? Bəlkə də, sərxoş əsgərlərin artığı – iylənmiş ət parçası! Dənizə düşən saman çöpündən yapışarmış. Mən də ona bel bağlamışdım. Amma bir ilan kimi qollarımın arasından sivrilib qaçmışdı.

**09.09.1946**

Bu gün səhərdən axşamacan otağımdan çıxmadım. Annanı düşünürdüm. Annanın ürəyimdəki yerini Mariya doldurdu.

Əsl yerini tapdı. “Xatirələr”i əlimə alan kimi yenə Mariya yadıma düşdü. Bir il əvvəlki kimi bu gün də Mariyanın məni qoyub getdiyi yerdəydim. Artıq həsrətdən başqa bir şey görməyəcəkdimsə, onda qoy Mariya – yazıq Mariya son xatirəm olsun!

Artıq həkimi də, Annanı da, Romanı da yadıma salmamağa çalışrdım. Krımdan çıxıb Rusiyaya qayıtdıqdan sonrakı günlərimin, Mariyanın xatirəsi ilə yaşamaq istəyirdim. Yenə “Xatirələr”imə qayıdırdım.

1942-ci ilin yazında Almaniya ordusunun tərkibində türk əsilli əsirlərdən Türküstan legionu yaradılmış, biz də yenidən əsgər olmuşduq. Alman uniforması ilə vəziyyətimiz həm gülməli, həm də ağlamalı idi. Amma biz bunu nə duya, nə də bu barədə düşünə bilirdik. Qarşımızda açılan ümid qapısının mənzərəsi bir illik əsirlik xatirələrimizi unutdurmaq gücünə malik deyildi. Odur ki, ilk həftələrdə almanlara qorxuyla baxmaqdan heç cür əl çəkə bilmirdik. Bu qorxumuz alman zabitlərinin gələcək Türküstan ordusunun özəyi olduğumuzu tez-tez təkrarlamağıyla yavaş-yavaş azaldı. Gələcəkdə, həqiqətən, Böyük Türküstan ordusuna qatıla biləcəkdikmi? Bunu bilmirdim. Amma Türküstan istiqlaliyyəti – bu ümid və arzu ürəklərimizi günbəgün, saatbasaat artan həyəcanla döyündürməyə, yaxşılıq və fədakarlıqla doldurmağa bəs edirdi. Hər bir millət azadlığını əldə etmək üçün döyüşür; hamı qan tökərək haqqını alarkən biz niyə bu yolda addımlamayaq?! Hər səhər təlimə çıxmamışdan qabaq

tabordakı axundlarımız bizə moizə oxuyur və nəsihətlər verirdi. Bu axundlar köhnə mollalara bənzəmirdilər. Onlar otuz beş yaşında, saçı-saqqalı təraşlı, uniformalarının yaxasında ay-ulduz olan, döyüşlərdə iştirak etmiş, bəlağətli nitqə sahib din adamları idi. Bizim kimi əsrlərdi əzilmiş insanlara da belə din adamları lazımdı. Bir neçə ay sonra Ukrayna ovalarında şəhid olmuş dostlarımızın başdaşısız məzarları önündə diz çökərək, başlarının üstündə vıyıldayan gülləleri, partlayış qəlpələrini veclərinə almayaraq "Yasin" oxuyarkən, bunu bir daha sözün əsl mənasında sübut etmişdilər.

– Uniformalarınızın qol manjetlərinə baxın! – deyirdilər.

Uniformalarımızın qolunda üç ağ Səmərqənd məscidi, ətrafında "Allah bizimlədir" sözləri toxunmuşdu.

– Məscidlərimizi Allaha küfr edən rus kafirlərindən xilas edəcəksinizmi?

Hamımız bir ağızdan cavab verirdik:

– Xilas edəcəyik!

Qırx ildə bir qardaşlarımızdan hansısa səhvən və yaxud huşsuzluqdan rusca bir söz işlətsəydi, onlar inciyər, dərhal da etiraz edərdilər.

Bəli, biz yaranacaq Türküstan ordusunun özəyi idik. Buna yavaş-yavaş inanırdıq. Daha da böyüyəcəkdik. Bir qarış da olsa, vətən torpağına yiyələnəcək, qanadlarımızı məmləkətin üstünə qartal kimi gərərək, milləti yenə Türküstan sahibi edəcəkdik.

Əsir düşərgələrindən hər gün yeni əsirlər çıxarırdıq. Kiçik Lejyonovada Səmərqənddəki qədər adam vardı. Min, beş min,

on min, iyirmi min, otuz min… Ordunun üç ay ərzində üç yüz min nəfərə qədər çoxalacağını deyirdilər. Hər gün aramsız təlimlər keçirdik. Lejyonovanın küçələri səhərdən axşama qədər yerləri titrədən ayaq səsləri, minlərlə ağızdan çıxan "can qurban sənə Türküstan!" hayqırtıları ilə inildəyirdi.

Yerli xalq qorxu içində idi. İllərdi sülh və sükut içərisində yaşamış bu insanlar nələr görmür, nələr eşitmirdi?! "Türküstan" nə deməkdi? Bu söz onlara heç nə ifadə etmirdi. Bizim monqol olduğumuzu zənn edirdilər. Biz onlar üçün anidən, yerin dibindən çıxmış təəssüratı yaradırdıq. Bax, beləcə, hamımıza təəccüblə baxırdılar. Bir tərəfdə səssiz-səmirsiz bir bağçanın ortasındakı kilsə zəngi qorxurmuş kimi ağır-ağır, qəribə bir tonda çalınırdı. O kilsə bizim də əzabın övladları olduğumuzu bilmirdi.

Həftələr, aylar keçib-gedir, təlimlər davam edirdi. Silah təlimi, gecə hücumu, müdafiə, əlbəyaxa döyüş… Hamısı istiqlal, hamısı Türküstan üçün idi…

Birinci bölüklər hazır idi. Stansiyalara üz tutmuşdular. Yollarda əsgərlərin ayaq səsləri gəlirdi. Qatarlara minirdilər. Heç kim danışmırdı. Sükutu dəmirlərin bir-birinə dəyməsi pozurdu. Onlar hazır idilər. Onlar milləti xilas etməyə gedirdi. Daha burada nə işləri qalmışdı ki? Sabah odun-alovun içinə girib, bizim üçün məmləkətə tərəf yol açacaqdılar.

Bəlkə də, məmləkətin sərhədlərinə çatmamış bir çoxu şəhid olacaqdı. Heç eyib etməz! Onsuz da hamısı Türküstan üçün deyildimi? Türküstan yenə bizim olacaqdı. Torpağı, daşı, havası,

suyu, səması, məscidləri – hər bir nöqtəsi bizim olacaqdı. Bundan sonra bizim üçün yalnız iki müqəddəs söz vardı: Türküstan və istiqlaliyyət! Bu yolda, bu müqəddəs qayə uğrunda son damla qanımızı belə axıdacaqdıq. Burda ölənlər xoşbəxt olacaqdılar, çünki həyatda qalanlar onların xatirələrini əziz yurda aparacaq və orada yaşadacaqdı.

Bunları fikirləşərək, bu hislərə bürünərək uniformalarımızı geyindik.

İki həftə ərzində heç bir iş görmədik. Uzun boylu, sarışın, ilk baxışdan quru adam təsiri bağışlayan, sanki xəstəymiş kimi ağarmış tatar çavuş bizi hər səhər sıra ilə düzüb legionda tabe olacağımız nizam-intizam qaydalarını izah edirdi:

– Bölündükdən sonra axşamlar şəhərə icazə alıb düşəcəksiniz. Şəhərdə gözəl madmuazellər heç də az deyil. Amma baxın ha, bura sevgi qripinə yoluxmuş formada qayıtmayın. Qrip olsanız, sizi əvvəlcə xəstəxanaya, sonra da həbsə göndərəcəm.

Bunu hər səhər təkrarlayırdı. Sonrasa yatdığımız binanın içini, ətrafını təmizləyir, uzaqdan – təlimdən qayıdan əsgərlərə tamaşa edir, ya da Akasiya ağacının kölgəsində uzanıb bölüklərə bölünməyimizi gözləyirdik. Günlərin bir günü tatar çavuş yanında katiblə gəldi. Hamımızın adını, Qızıl Ordudakı rütbəmizi yazdı. Bilmirəm niyə, rütbəmi əsgər kimi yazdırdım. Bəlkə də, ətrafımdakı dostlarımın mənə başqa gözlə baxmağını istəmədiyim üçün, bəlkə də, artıq əvvəlki Sadıq Turan olmadığım üçün.

Adlarımız yazılandan dərhal sonra bölüklərə ayrılacağımızı

düşünsək də, boş və mənasız həyatımız bir həftə də davam etdi. Tatar çavuş hər səhər gəlib bizə almanların əsiri olduğumuzu unutmamağımızı, bir az da güclü-qüvvətli olmağa çalışmağımızı deyirdi.

Nəhayət, bir axşamüstü bir alman zabitlə səkkiz-on nəfər türküstanlı gizir gəldi. Gizirlər kazarmaya girərək qışqırdılar:

– Çölə çıxın, haydı, çölə!

Gizirlər çox amansız görünürdülər. Onlardan biri dilləndi:

– İki həftədən bəridir ki, qoyun kimi kölgədə yatıb pulsuz çörək yeyirsiniz. Artıq əlimdəsiniz! Görəcəksiniz, bir-bir burnunuzdan necə gətirəcəyəm!

Bəziləri isə lap pis idi, birbaşa söyüş söyürdülər. Nizam-intizam baxımından, bəlkə də, belə etməli idilər. Onsuz da əsgərlik bizim üçün yeni bir şey deyildi. Amma gizirlərin gözlərindən təlimlərin necə keçəcəyi hiss olunurdu.

Binanın qarşısında düzüldük. Adlarımız oxundu. Manqalara bölündük. Ağsaqqal Huşnudla eyni manqaya düşmüşdük. Hələ də əsir olmadığımıza inana bilmirdik. Buna görə də Huşnud bir-birimizdən ayrılmadığımız üçün sevinir, əsirlikdəki kimi əlimdən tuturdu. Zabitin ətrafında düzülən gur səsli, tər-təmiz çəkməli, gümüş toqqalı gizirlərin hansının bizə rəhbər veriləcəyinə baxırdıq. Yanımdakı biri yavaş səslə dostuna dedi:

– Bığı olan özbəyə oxşayır.

– Bizim manqanın da, demək olar, hamısı özbəkdi. Yəqin, bizə düşər.

Huşnud danışan özbəklərə təpindi:

– Ey, zırıldamayın! Özbək, qırğız nə fərqi var?! – demişdi ki, bir əl çiynimdən tutdu. Başımı arxaya çevirdim. Bir anlıq bu boyda dünya mənə dar gəldi. Qarşımda bir il əvvəl Aleksandrovka körpüsü yaxınlığındakı döyüşdən əvvəl tapıb-itirdiyim Qılıncbay dayanırdı. Rəngi bir az solğun idi, gözləri gizli-gizli, mənalı-mənalı parıldayırdı. Əli çiynimdə danışmağa başladı. Sanki kim olduğunu deməyimi gözləyirdi.

– Səninlə Krasnoyedə tanış olmuşduq. Leytenant Süleymanın bölüyündəydin, hə?

Cavab vermədi. İnsanları kimliyindən, necəliyindən, irqindən, rəngindən, sinfindən asılı olmayaraq sevirəm. Amma bilmirəm, niyəsə bu dəqiqələrdə Qılıncbayla aramda qəlbimlə duya bilmədiyim, gözəgörünməz bir şey məni geri itələyir, ondan uzaqlaşdırırdı. Bir az arxaya çəkildi. Sinəsində, düymə deşiyi ilə cibi arasından asılmış gümüş zəncirini əlinə götürüb, məni, ağsaqqal Huşnudu və digərlərini sərt baxışla təpədən-dırnağa qədər süzdü, sonra heç nə demədən alman zabitinin yanına getdi.

Ağsaqqal Huşnud məndən soruşdu:

– Tanıyırsan?

– Deyəsən.

Qılıncbayı Krasnoyedə Süleymanın toplarından yüz metr aralıda, tarlada tapmışdım. Ancaq indi onun yalnız xarici görünüşü Qılıncbay idi. Daxilini hələ tam ayırd edə bilmirdim.

Mən fikrə gedərək qarşımdakı Qılıncbaya baxıb, “Əvvəlkidirmi, yoxsa yox?” – deyə düşünərkən, başqa manqalar bölüklərə ayrılmış, meydanda təkcə biz qalmışdıq.

Huşnud dedi:

– Bax, Sadıq, o adam bizə tərəf gəlir. Deyəsən, bizi onun manqasına verəcəklər… Özü də xeyli zabitəli adama oxşayır, e!

Huşnudun sözü ağzından çıxmışdı ki, uzaqdan bir səs əmr verməyə başladı:

– Sağa-a-a-a dön!

– Sola-a-a-a dön!

Qılıncbayın səsi sərt və kəsik-kəsik gəlirdi:

– Manqamda ana uşaqlarını istəmirəm. Əsgər kimi dayanın, yoxsa hamınızı bölüyə dördayaq apararam.

Bizi bölüyə apardı. Binanın qarşısında bir neçə dəfə də sağa-sola döndərdi, sonra yanımda dimdik duran ağsaqqal Huşnuda yaxınlaşaraq soruşdu:

– Sən, ağsaqqal! – deyə qışqırdı, – Sağını-solunu bilmirsən? Əsgərlikdə nə iş görürdün? Katib zad idin?

– Yox, cənab gizir, katib deyil… – deyə izah etməyə başlamışdı ki, onun sözünü kəsərək Huşnudun burnuna tərəf barmağını yellədi:

– Mənimlə elə danışma! Qızıl Orduda nə baş verdisə, yaddan çıxart! Bura Qızıl Ordu deyil! Mənimlə necə danışmalı olduğunu sənə öyrədərəm!

Düzdü, bunu Huşnuda deyirdi, amma “Qızım, sənə deyirəm, gəlinim, sən eşit” misalındakı kimi mənə eşitdirirdi.

Həmin gündən sonra həyatımız dəyişdi. Səhər tezdən qalxır, dəhlizdə çavuşun səsini eşidər-eşitməz silahlarımızı götürüb, tez çölə qaçırdıq. Günümüz belə başlayırdı. At üstündə gələn

bölük komandirimizin zalım baxışları altında Lejyonovanın küçələrindən keçirdik. Bölüklər tağımlara, tağımlar manqalara bölünür, təlim başlayırdı. Meşənin qaş yerləri, qumluqlar, təpələr əsgərlərlə dolurdu. Bizim manqaya Qılıncbay rəhbərlik edirdi. Səsi, baxışları, hərəkətləri ilə komandirdən daha sərt, daha ciddi görünmək istəyirdi. Mənə elə də çox baş qoşmurdu. Mən də ondan mümkün qədər uzaq durmağa çalışırdım. Söz götürmək istəmirdim. Bu vəziyyətimi təlimlərdə yaxşıca tərləyərək qoruyub-saxlamağa çalışırdım. Deyəsən, ən çox qaçan, əmrə tabe olan da mənim idim. Tağımdan ayrılan kimi Qılıncbay bizi qumluğa aparır, orada qaçırdır, qumluğun axırındakı daşlı-tikanlı təpəni sürünə-sürünə çıxmağımızı əmr edirdi. Bunu bir-iki dəfə yox, ən azı on dəfə etdirirdi; Qılıncbayın təlimindən yarıcan qayıdırdıq.

Bəli, bu adam Krasnoyedə tanış olduğum Qılıncbay deyildi. O Qılıncbay olduğundan şübhələnməyə başlamışdım. Gözləri daima vəhşi bir heyvanınki kimi parıldayırdı. Təlimdən sonra Huşnud onunla dostcasına danışmaq istəyəndə belə, qaşlarını çatır, dodaqlarını qəzəblə bükür, yanımızdan ya heç cavab vermədən, ya da kobud bir söz deyərək gedərdi. Əvvəllər onun bu hərəkəti Huşnudun çox xətrinə dəyirdi. Başqaları da “Təlimdə bizə zülm verməsin, başqa neynir eləsin” – deyə, düşünürdülər. Amma Qılıncbayın əzazilliyi, zülmü günü-gündən artırdı. Otaqda olanda hamı onun bizə qarşı bu hərəkətlərini müzakirə edirdi. Mən söhbətlərə elə də çox qatılmırdım.

Legiondakı təlimə öyrəşdikcə Qılıncbayın şəxsiyyəti mənim

üçün ikinci planda qalmışdı. Belə ki, Krasnoyedə tanıdığım Qılıncbayı yavaş-yavaş unutmağa başlamışdım. Artıq indiki əsəbi, zalım, lənətəgəlmiş yeni Qılıncbaya öyrəşmişdim.

Bir gün digər tağımların əsgərləri kölgədə yatıb, siqaret çəkərkən, Qılıncbay bizi yenə daşlı-tikanlı təpədə, cəhənnəm günəşinin altında qaçırtmışdı. Dirsəklərimiz, dizlərimiz yara, qan içində qalmışdı. Eyni günün axşamısa bizim bölüyün əsgərləri icazə alaraq şəhərə getmişdilər. Otaqda mən, ağsaqqal Huşnud və bir neçə əsgər yoldaşımız qalmışdı. Qısa boylu, arıq-uruq, badam gözlü, sarışın astarxanlı Muhan yatağına uzanaraq dedi:

– İcazə alıb, gedəniniz yoxdu?

Huşnud cavab vermədi, sadəcə acı-acı güldü. Biz də səsimizi çıxartmadıq. Otağa bir anlıq sükut çökdü. Elə bu anda Muhan birdən-birə çarpayıdan qalxdı:

– Siz qalın. Mən gedirəm. Şərab dükanından iki şüşə rakı alacağam. Birini içəcəyəm, o biri şüşəni də qara qırğızın başında parçalayacam, – deyib məndən cavab gözləyirmiş kimi gözlərimin içinə baxdı.

Onun hirsli üzü və sözləri ürəyimə bir növ qorxu salmışdı. Tez qarşısını kəsdim:

– Muhan, get, yerində uzan. Elədiyin ayıb deyil? Deyəsən, əsgər olduğunu yaddan çıxardırsan? Əsirlikdə deyilik artıq, əsgərik!

– Nə ayıb e?! Bu əclaf gizir olub, özünü bir şey hesab edir?! Niyə o biri gizirlər kimi təlim keçmir?

– Özünü göstərir, Muhan, – deyə əsgərlərdən biri sözə qarışdı, – Almanlara özünü bəyəndirmək istəyir. Ciddi təlim aparsa, komandir çiyninə bir gümüş ulduz da artıracaq. Sən də gözə girməyə çalış, nə bilirsən, bəlkə, sənə də bir gün çavuş rütbəsi verərlər. Hələ çiyninə gümüş ulduz da vurarlar.

– Mən sinəmdə alman qəlpəsi daşıyıram, bu, mənə bəs edər.

Bu sözləri deyəndən sonra üzü saraldı, ağır-ağır gedib yatağının kənarına oturdu, bir siqaret yandırdı. Muhana baxdım. Əlləri titrəyirdi. Otaqda bayaqkı kimi səssizlik hökm sürdü. Beləcə, səssiz-səmirsiz bir-birimizin üzünə baxarkən qapı açıldı, içəri Muhanın dostu Həsən girdi. Həsən bizim tağımdan deyildi. İçəridə nə baş verdiyini anlamaq üçün soruşdu:

– İgidlər, yasınız düşüb?

Biz yenə danışmadıq, o da gedib divardan asılmış güzgünün qarşısında dayandı, aşağı əyildi, yağlı, qara saçlarını daradı, papağını taxdı, geriyə – qapıya tərəf addımladı. Sonra təzədən bizə çevrildi, qapıya söykənərək dedi:

– Bizim gizir stansiyanın yanındakı bir evdə, on altı yaşlı bir qızdan danışır. Yaman şeymiş. Hamımız gedirik. “Siz də gəlin” deyərdim, amma qız bizim kimi sağlam əsgərləri istəyirmiş.

Muhan dostuna hirsləndi:

– Çərənləmə, cəhənnəm ol!

– Getməyinə gedirəm e, Muhan, ancaq təəssüf ki, sizi də dəvət edə bilmirəm. Qılıncbayın təlimindən sonra siz qadına…

– Nə p…x yeyəcəksənsə, get, ye, haydı, marş!

– Gedirəm, gedirəm…

– Bu gecə bu otağa yuyunmadan girsən, özünlə birlikdə yatağını da çöldə tapacaqsan!

Həsən bir anlıq yumşaldı və sakit səslə dedi:

– Hirslənmə Muhan, zarafat edirəm, qız zad yoxdu, meyxanaya gedirik, istəyirsənsə, sən də gəl.

Sözünü bitirib otaqdan çıxdı.

Göyün üzü açıq mavi rəngdə idi. Yollar toz içində, torpaq çatlamışdı. Qızğın günəşin altında sapsarı təbiət susaraq ayaq səslərimizi dinləyirdi. Qurumuş, çatlamış dodaqlarımız tərpənmirdi. Ağzımızı açacaq halımız yox idi. Alnımızdan, yanaqlarımızdan, açıq sinəmizdən dayanmadan tər axırdı. Bəzən əlimi qaldırıb silmək istəyir, silə bilmirdim. Başımız dimdik, əlimizi, ayağımızı kukla kimi hərəkət etdirərək, irəliləyirdik. Bəli, biz bu gün taxtadan kuklalardıq. Bölüyün yanından, atının üstündə şəstlə dayanan qırmızısifət, qaşları, kirpikləri buğda sarısı rəngində prussiyalı zabitin cansız, hissiz kuklalarıydıq.

– Eine, zwei. Eine, zwei… Eine, zwei!

Və addımlarımızın çıxartdığı, ardı-arası kəsilməyən "Rrap, rrap… Rrap, rrap…" səsləri. Bu səslər Lejyonovanın küçələrini doldurduğu kimi, beynimizin içində də guppuldayırdı. Zabitin soyuq və sərt baxışı altında başımız dimdik, heç bir şey düşünmədən elə hey irəliləyirdik.

– Eine, zwei! Eine, zwei!

– Rrap, rrap… Rrap, rrap…

Yolun kənarında büzüşüb yatan köpək artıq bu səslərə öyrəşmişdi. Başını qaldırmır, qulağını şəkləmir, bizim

cərgələrimizə tək gözü ilə baxmaqla kifayətlənirdi. Evlərin birinin qarşısında yazıq uşaq iki əlini yumruq edib, göz yaşını silir, boğula-boğula ağlayırdı. Elə bu vaxt qapının arxasından bir əl uşağın yaxasından tutub, içəri saldı. Səs bir anlıq dayandı. Hər yan yenə kimsəsiz, səssiz qaldı… Sanki dünyada təkcə o atın üstündəki zabitin səsi qalmışdı:

– Eine, zwei! Eine, zwei!

– Rrap, rrap… Rrap, rrap…

Qabaqdakı tağımlar sola dönür, yüz ayaqlı əjdahalar kimi, tozlu yola girirdilər. Ürək sıxan ayaq səsləri aləmi bürüyən toz-duman içində yavaş-yavaş uzaqlaşıb eşidilməz olurdu.

Şam meşəsinin ətəklərinə çatdıq. Hamımız çiyinlərində kilolarla yük daşıyırmış kimi ikiqat əyilərək gedirdik.

Muhan alnının tərini silərək soruşdu:

– Ağsaqqal, bizə nə vaxt istirahət verəcəklər?

Huşnud yarı zarafat, yarı ciddi cavab verdi:

– Mən nə bilim? Gizir Qılıncbaydan soruş da. O bilər…

Muhan susdu. Amma bizdən aralıdakı Həsənin vecinə də deyildi. O, bizim manqadan olmadığı üçün sərbəstcə danışa bilirdi. Yavaş-yavaş aramıza soxuldu.

– Sizin gizir komandirin dostudur?

– Dostudur, hə… Dünən meyxanada komandirlə rakı içirdi.

– Rütbəsini qaldıracaqmış.

– Qızını verməyi vəd eləmədi ki, sizin gizirə?

– Bax, bunu bilmirəm. Özündən soruş bir.

Qılıncbay susurdu. Bu gün o, istədiyini edə bilmirdi. Bizim

manqa tağımın içində addımlayırdı. Buna görə də Qılıncbay istədiyi kimi hərəkət edə bilmirdi. Amma baxışlarından manqa tağımdan ayrılan kimi nə edəcəyini oxuyurduq. Qaşlarını çatıb, dodaqlarını bərk-bərk bir-birinə sıxmış, qaş-qabağısa yer süpürürdü. Tağımdan ayrılanda… Bunu hamımız yaxşı bilirdik… Amma Həsənin vecinəydimi?

– Giziriniz ətli-budlu gəncdir, sizi də çox sevir. Bizim gizirə heç bənzəmir. Bizimki çox sərtdi. Dəhşət çox…

– Biz də onu sevirik.

Artıq bu sözlərə Qılıncbay dözə bilmirdi. Üzü saralır, elə hey hirsli-hirsli ağsaqqal Huşnudun üzünə baxırdı. Söhbət bir az da uzansaydı, dava düşəcəkdi. Yanımda addımlayan Muhan asta, ancaq amiranə bir səslə dedi:

– Qocaya əl vursa, onu parça-parça edəcəyəm.

Bundan sonra Huşnudla Qılıncbayın arasına keçdi. Elə bu an arxamızda bir bağırtı eşidildi.

– Sağdan düşmən təyyarələri!

Qaçaraq meşəyə girdik. Hər şey yaddan çıxdı. Bəzilərimiz çuxurlara girmiş, bəzilərimiz dizüstə çökmüş, dayanmadan havaya atəş açırdıq. Bu, bizim üçün həm istirahət, həm də əyləncə əvəzi idi. Həmin gün silahlı təlimlər gecəyə qədər davam etdi. Meşəni "qruplaşmalar"dan təmizlədik. Göydəki günəş qərb üfüqlərini qızıla boyayan vaxtı meşədən çıxdıq. Bölük komandiri tağım komandirlərini çağırıb vəziyyəti izah etdi. (Tağımlara alman çavuşları rəhbərlik edirdi.) Meşədən çıxmağa nail olmuş bir dəstə Lejyonovaya tərəf irəliləyirdi. Tağım dərhal hərəkətə

keçdi. Partizan dəstəsi Lejyonovaya çatmamış yolunu kəsməli idik. Lejyonovaya qədər tarlalar, evlər – dəstənin gizlənə biləcəyi hər yer axtarılacaqdı.

Qarşımızda alman çavuşları, tarladan qurd sürüsü kimi Lejyonovaya tərəf irəlilədik. Zəminin üstündən xoş meh əsirdi. Qılıncbay, Huşnud, Muhan və mən birgə addımlayırdıq. Ətrafın səssizliyində zəif küləyin təsirilə qızıl kimi buğda saçaqlarının yellənməsi ürəyimdəki həsrət hislərini oyadırdı. Tarlanın ortasındakı ağ divarlı, samandan hörülən, uçuq-sökük, ətrafı çəpərlə əhatələnmiş bir evə tərəf gedirdik. Həyətdə hündür ot tayası, tayanın yanında atsız, oxu dimdik dayanmış bir araba gözə çarpırdı.

Qabaqda gedən komandir dayandı. Arxasınca gələn əsgərlərə əli ilə işarə verərək dedi:

– Yerə uzan!

Hamımız bir nəfər kimi uzandıq.

Həyətdə uzun boylu, arıq bir adam gəzişirdi. Tez-tez dayanıb, əlini gözünün üstünə qoyaraq tarlasına baxırdı. Yanımdakı alman çavuşunun sürünərək komandirə tərəf getdiyini gördüm. Bu dəqiqələr müharibənin səssiz anları idi. Arabir uzaqdan tək-tük tüfəng səsləri eşidilirdi. Deyəsən, birinci tağım Lejyonovaya girmək üçün son hücumunu edirdi. İndi gizir komandanın yanında dizüstə çöküb, durbinlə qarşıdakı evə baxırdı. Biz əkinin içinə uzanmış, əmr gözləyirdik. Huşnud Muhana alçaq səslə məzəli hekayə danışırdı. Muhanın gülüşün kənardan belə eşidilirdi.

Günəş üfüqə söykənmişdi. Təpəmizin üstündəki buludlar, dərdli dünyanı qanadları altına alaraq yuxuya hazırlayırdı. Birdən evdən ağrı dolu səs eşidildi. Bir-iki dəqiqə sonra həyətdəki atsız arabanın təkərləri arasından xilas olmuş bir donuz balası, burnu yerdə, xortaya-xortaya, tez-tez qulaqbatırıcı, incə səs çıxararaq, sürətlə tüfənglərimizə tərəf qaçmağa başladı. Əsgərlər hamısı birdən qəhqəhə çəkdilər. Huşnud Muhanla məzələndi:

– Donuz sənə tərəf qaçır. Muhan, deyəsən, səni tanıdı, qohum-əqrəban deyil?

Elə bu vaxt bir tüfəng səsi gəldi. Heyvan olduğu yerdəcə dayandı. Burnu torpağa əyildi, çırpınmağa başladı. Huşnud o dəqiqə götürüldü. Növbəti güllə saçaqların arasından vıyıltıyla keçdi. Heyvan qabaq ayaqlarının üstünə yıxıldı, bayaqkı səsi son dəfə çıxartdı və yavaş-yavaş kəsildi. Bir az sonra tamamilə yerə uzandı. Huşnud hələ də ayaq üstdə idi:

– Günah deyil? Heyvanı kim öldürdü? – deyə bağırdı.

Kənardan ot-alafın içində uzananlardan biri cavab verdi:

– Niyə günah olsun axı, ağsaqqal? Haram heyvanı öldürmək nə vaxtdan günah olub?

Söhbətə başqa biri də qoşuldu.

– Yaxşı, otur yerində. Günah imiş e…

Huşnud hirsindən dillənə bilmədi. Yavaş-yavaş diz çöküb öz-özünə mızıldandı:

– O donuzu öldürənin özü donuzdur.

Biz buğdaların içində uzanıqlı vəziyyətdə gəbərmiş donuza

baxarkən, sol tərəfdən komandirlə bir neçə gizir evə tərəf qaçdı. Evin qarşısında bir qadın əllərini göyə qaldırıb, hıçqıraraq ağlayırdı. Bir neçə alman, sonrasa bir neçə türküstanlı gizir də ayağa duraraq, evə tərəf qaçmağa başladılar. Evin qarşısındakı adamlar getdikcə çoxalırdı. Biz ayağa qalxıb evə baxmağa başladıq. Təkcə Huşud diz üstə idi:

– İstiqlal savaşına donuz öldürərək başladıq. Nə bərəkətli gün imiş, min bərəkət… – deyə mızıldandı.

Evin həyətindəki izdihamdan bir nəfər çıxaraq bizə tərəf gəlirdi. Muhan səsinin incə yerinə salıb qışqırdı:

– Orda nə baş verir? Donuzu dəfn edirsiniz?

– Ölən təkcə donuz deyil! Donuza atılan güllələrdən biri adamın başını deşib. Bədbəxt yerdə qan içində uzanıb.

Gözlənilmədən bədənimə titrəmə düşdü. Tez evə tərəf qaçdım. Həyətdə alman gizir əsgərləri tarlaya geri qaytarır, çavuşun yanındakı türküstanlı gizir də əlini qaldırıb, əmrlər verirdi:

– Tez olun, rədd olun! Rədd olun, dedim sizə… Heç ölü görməmisiniz?

Özümü irəli dürtüşdürdüm. Taya ilə arabanın arasında başı-gözü qan içində, ağ köynəyində irili-xırdalı qan ləkələri, uzun boylu bir adam uzanmışdı. Əsgərlər başqa ölü olub-olmadığını yoxlamaq üçün evin dar və alçaq qapısından girib-çıxırdılar. Evdə də ölü olar deyə, içəri girməyə heç cür cəsarət edə bilmirdim. Bir gizir çölə çıxdı. Ölünün başındakı adamlara yaxınlaşaraq qışqırdı:

– Haydı, igidlər, çəkilin! Çəkilin! Təki arzunuz ölü görmək olsun… Rusiyada istədiyiniz qədər görəcəksiniz!

Bir neçə əsgər, arxasıncasa bir neçə gizir evdən çıxdı. Komandir və alman gizirləri qapının qarşısında söhbət edirdilər.

Komandir həmişəki səsi ilə dedi:

– Kəndçinin günahı yoxdur… Bir səhvə qurban getdi. Bunu legion komandirinə özüm açıqlayaram.

Qan içində yerə sərilmiş kəndçiyə bir az da baxıb, aralarında söhbətləşib getdilər. Qapının qarşısında tək qaldım.

Axşam həm qəribə bir qorxu, həm də uşaq kimi maraq hissi mənə güc gəlirdi. Amma deyəsən, marağım qorxumdan qüvvətli idi. Çünki mən evə komandir və gizirlər həyətdən çıxandan sonra girdim. Özümü yarıqaranlıq bir otaqda tapdım. Sağda kiçik bir pəncərə, pəncərənin yanında divardan asılı kiçik, çatlamış bir güzgü vardı. Sol tərəfdə bir ayağı qırıq masa, onun da üstündə şüşəsi qaralmış çıraq vardı. Bütün bu kiçik və kasıb əşyaların yanında dağ kimi böyük bir dolab gözə girirdi. Çölə çıxmaq istəyəndə otağın qzülmət küncündə saçı-başı dağınıq bir qadının qaranlıqda, səssiz və hürkmüş pişik kimi oturduğunu sezdim. Qucağında iki uşaq vardı. Üçüncü uşağın başı da sinəsinə söykənmişdi. Uşaq sanki başı anasının sinəsində doğulmuşdu. Onun anasını qucaqlamağı, anasının da ondan yapışmağını görən hamı bu cür düşünərdi. Qadının qucağında yatan uşaqlardan biri məni görən kimi anasının boynuna sarılaraq, iri və mənalı gözlərini mənə zillədi. Onun baxışlarından qorxurdum. Aramızda dərin, qaranlıq bir uçurum

yarandığını duyurdum. Uşağın gözləri mənə çox dərin, çox ağrılı nələrsə deyir, bütün mənliyimi silkələyirdi. Bəlkə də, müharibənin qorxu və dəhşətini ilk dəfə olaraq o uşağın gözlərindən oxuyurdum.

Çöldə şeypur çalındı. Yavaş-yavaş batan günəş də, sanki bu evdə ümid işığının sönməyini simvolizə edir, sonuncu şüalarını kiçik pəncərənin şüşəsindən uzadıb içəriyə baxırdı. Ana da, uşaqlar da, hətta küncdəki ikona da sükuta qərq olmuşdu.

Evdən çıxanda bədənim buz kimiydi. Bizim tağımlar yavaş-yavaş evdən uzaqlaşırdılar. Ürəyim artıq maraqdan yox, qorxudan tir-tir əsirdi. Həyətdəki meyit, sanki mənə baxırdı. Elə bil, mənimlə danışmaq istəyirdi. Tağımıma tərəf götürüldüm. Əkinin arasından tağımlara çatana qədər o uşağın gözləri, otağın səssiz divarları, ikonalar, arxamca məni təqib edirmiş kimi bədənim ürpəşdirirdi. Çox keçmədi ki, özümü Muhanla Huşnuda yetirdim. Huşnud susur, Muhansa hamının yerinə danışırdı. Bir anlıq üzümə baxıb dedi:

– Üzün niyə saralıb, Sadıqım?

Cavab vermədim.

– Gördün ölünü?

– Gördüm…

– Birinci dəfəydi, ölü görürdün?

– Hə…

– Elə bil bir az qorxmusan, hə?

– Bir az…

– Baxma! Ölüdən qorxursansa, ölüyə baxma! Yanındanca

keçib get, üzünə baxma. Ayaqlarını görsən, eybi yoxdu. Mən ölünün təkcə ağzına baxanda qorxuram. Əlləri də bir az qorxuducu olur, amma ağzı qədər yox. Biz əsirlikdə ölülərin ağzını görməmək üçün ayaqlarından dartıb barakdan çölə çıxarırdıq. Bizim ağsaqqala bax…

O da bir az mızıldandı. Amma niyəsini bilmirəm. Görəsən, nəyə pis olmuşdu – donuza, yoxsa kəndçiyə görə?

– Bayaq kimin üçün ağlayırdın, hə, ağsaqqal?

– Cavab vermir… Yəqin ki, donuza.

Günəş gözdən itmiş, ucsuz-bucaqsız tarlaya matəm səssizliyi çökmüşdü. Buludların qaralmağa başlayan qanadları altında bütün dünya yuxuya getməyə hazırlaşırdı. Muhan hələ də danışır, aralıdakı Huşnudsa elə hey susurdu. Mən arabir başımı döndərib arxadakı, dəniz üfüqlərində batan bir gəmi kimi kiçilə-kiçilə gözdən itən evə baxırdım.

Bu da ilk günahımız! İstiqlal yolu bizi haralara aparacaqdı? Bilmirəm. Amma yenə tənha deyildim. Gizir Mustafanın, azərbaycanlının, Süleymanın kölgələrinə sığındığım günlər kimi, yanımda kölgələrində gizlənə biləcəyim adamlar vardı.

Buğda tarlasından çıxandan, Leyjonovaya girməmişdən qabaq Huşnudun yanına getdim. Tüfəngi çiynində, gözlərisə yerdəydi.

– Allahım, sən günahlarımı bağışla! – deyə dua edirdi.

Bu hadisədən düz iki həftə sonra, axşamüstü tüfənglərimizi təmizləyərkən Qılıncbay otağa girdi. Baxışları yaman dumanlı görünürdü, rəngi solğun idi. Yanımda oturdu, əvvəlcə mənim

danışmağımı gözləyirmiş kimi gözlərimin içinə baxdı. Səsimi çıxartmadım. Sonra özü dilləndi:

– Sadıq bəy.

Bəy sözünü boğazına ilişmiş loxmanı udurmuşcasına çətinliklə tələffüz etdi.

– Sizə bir xəbər verməliyəm.

Birdən-birə adıma əlavə etdiyi bu “bəy” sözünə çaşıb-qalmışdım:

– İnşallah, yaxşı xəbərdir.

Bir anlıq susdu. Başını qaldırıb, üzümə baxdı.

– Pis deyil… Yaxşı xəbərdi. Bayaq qərargahdan bir katib gəlmişdi, sizi axtarırdı.

– Məni?

– Hə, sizi. Təcili legion komandiri ilə görüşməlisən.

– Legion komandir ilə?

– Hə, legion komandiri təcili gəlməyini istəyir.

Bilmirdim, bu yaxşı, yoxsa pis xəbər idi. Tüfəngimi çarpayıma qoyub qapıya tərəf getdim. Qılıncbay yanımca gedirdi. Otaqdan çıxmamış dayandı, üzümə uzun-uzadı baxdı və alçaq səslə dedi:

– Sadıq bəy. Keçdiyim təlimlərdə sizə çox əziyyət vermişəm. Məni bağışlayacaqsınızmı?

Qılıncbayın soyuq baxışlarını təpədən-dırnağa qədər süzdüm.

– Sanki bir-birimizdən ayrılacaqmışıq kimi danışırsan, cənab gizir.

– Deyəsən, elə olacaq.

– Nəsə bilirsənsə, açıq-aydın de.

– Dəqiq bilmirəm… Amma təxmin edirəm ki… Dünən komandir bundan sonra bölükləri və tağımları türküstanlı zabitlərin idarə edəcəyini deyirdi.

– Olsun da, bundan mənə nə?

– Siz rus ordusunda zabit idiniz…

Qılıncbay sözünü bitirməmiş otaqdan çıxdım.

Legion komandiri mayor Erniki ilk dəfəydi ki, görürdüm. Bədəni ləyəndə şişən xəmir kimi, dar uniformasının düymələrini qoparıb çölə daşmaq istəyirdi. Toqqasını bərk sıxdığına görə təraşlı üzü qıpqırmızı olmuşdu. Peysəri qalın idi. Yaşıl gözləri parlaq və nəmli görünürdü. Göz qapaqları qızarmışdı. Amma çirkin də demək olmazdı. Üzündəki ilk nəzərə çarpan şey – sağ qulağının dibindən düz dodağının ucuna qədər davam edən, olduqca dərin bir qılınc yarası idi. İzi açan adam qılıncı elə ustalıqla çəkmişdi ki, sanki mayorun ağzındakı qızıl dişin görünməyini istəyirmiş kimi, dodağının kənarından balaca barmağının dırnağı böyüklüyündə bir ət parçasını kəsib-atmış, qızıl dişi aşkara çıxarmışdı. Üzünün bu qüsuruna rəğmən mayor Ernik, dediyim kimi, nə çirkin, nə də göründüyündən daha pis bir insandı. Məni çoxdan tanıyırmış kimi qarşıladı. Adımı, rütbəmi bilirdi. Mənə Kamal deyə xitab edirdi, o biri adımı da bilirdi. Uzun və dar bir otaqda, qəhvə rəngli masanın üstündəki Hitlerin tunc büstünün arxasında ayaq üstə dayanaraq mənə oturmağa yer göstərdi. Oturmamışdan qabaq əl uzadıb, salamlaşdım. Üzünə diqqətlə baxdım. Bu günə qədər

tanıdığım almanlara qəti bənzəmirdi. Dodaqlarının ucunda daim təbəssüm vardı. Amma buna baxmayaraq, sanki maskaya və ya bir aktyorun üzünə baxırmış kimi gözümü ondan çəkə bilmirdim. Bəzən onu kapitan Baha oxşadırdım. Əslindəsə, onun kimi deyildi. Mənə bacardığı bütün yaxşılıqları etdi. Amma mən duruşumu heç pozmadım. Mayor Ernikin bütün əsgərlər tərəfindən sevilməyi də fikirlərimin səhvliyinin sübutuna yaraya bilərdi. Bəzən cümə namazımıza gəlib meydanın kənarında bizi izləyirdi. Bir il sonra axundların arasında komandir müsəlman olacaq deyə, bir şaiyə gəzməyə başlamışdı. Amma çox keçmədi ki, bu söz-söhbət yaddan çıxdı.

İndi masanın arxasındakı kresloda oturub təbəssümlə gözlərimin içinə baxırdı. Çətinliklə Türkiyə türkcəsində dedi:

– Bir aydan çoxdur ki, əsgər kimi təlim keçirsiniz.

Türkcəsinin zəif olduğunu, bu dili qısa zamanda öyrənəcəyini, xüsusilə də, qırğız və özbək ləhcələri ilə maraqlandığını dedi.

Haqqımda heç nə soruşmurdu: Qızıl Orduda, sonra əsir düşərgəsində keçirdiyim günlərdən heç söhbət salmırdı.

Söz dildən düşmüşkən, birdən ayağa durdu, düzbucaqlı formadakı otağın o biri başına var-gəl edərək dedi:

– Kamal bəy, ordu qərargah rəisindən aldığımız əmrə görə, bütün tağım və bölükləri türküstanlı komandirlərə təhvil veririk.

Mən susurdum. Yenə eyni təbəssümlə soruşdu:

– Bu xəbər sizi bir az da olsa sevindirmədimi?

Cavab vermədim, əvəzinə başımı qaldırıb mayor Ernikin üzünə baxaraq güldüm. Bu gülüşümü mayor Ernik komandirliyi

qəbul etməyim kimi başa düşdü. Onsuz da etiraz edəcək vəziyyətdə deyildim. Əsgər kimi qayalıqlarda dizlərimi qanatmaqdansa, zabit olub at üstündə gedərdim. Gizirlərin üstümə qışqırmasındansa, mən onlara təpinərdim. Tər, torpaq qoxusu içində çürümək əvəzinə, zabit uniforması geyinərdim. Nişanlarımla, ulduzlarımla parıldayardım. Onda mən əvvəlki Turan idim. Mayor Ernik papağını asılqandan götürəndə ayağa qalxdım.

– Gedə bilərəm, herr mayor?

– Yox. Bütün legionda otuz zabit tapa bildik. Siz otuz birincisiniz. Ən yaxşı alman zabitlərinin idarəçiliyində üç aylıq zabit kursu açırıq. Üç ay alman silahlarını və təlim üsullarını yaxşıca öyrənəndən sonra, tağımları və bölükləri idarə etməyə başlayacaqsınız. İndisə mənimlə gəlin, sizi kurs keçəcək dostlarınızın yanına aparım.

Papağını taxdı, otaqdan çıxdıq. Binanın pilləkənlərindən yan-yana enərək avtomobilə minəndə, ürəyim qürurla dolub-daşdı. İndi, bəlkə də, ilk dəfə olaraq, rahat, gənc və özüm olmuşdum. Avtomobildə dəmir hasarlardan keçərək şosenin sağındakı meydana girəndə, elə hey mayorun formasına baxırdım. Uniforması şux, gözəl və gözqamaşdırıcı idi. Bircə sinəsində – ürəyinin üstündəki gümüş qartalın pəncəsində tutduğu qamalı xaç əsəbimə toxunurdu. Bu, bəlkə də, qamalı xaçın mənim üçün heç bir mənası olmamasından irəli gəlirdi. Yalnız zabit olub tağımımla Rusiyanın içinə girəndən sonra alman xaçından, alman qartalından mənə nə?!

Bəs çərkəz papağı taxmayacam? Papağın üstünə ukraynalı qızlara ay-ulduz toxutmayacağam? Bircə o məmləkətin sərhədlərindən keçsəydim! Yoxsa alman qartalı vecimə də deyil.

Bəli, mən artıq əvvəlki Turan idim. Mən yenə də kişi olurdum. Bəlkə də, damarlarımdakı tatar qanı işini görməyə başlayırdı.

İki balaca kazarmanın arasında avtomobildən düşdük. Zabit kursu keçəcək dostlarımızın bir qismi qolları çırmanmış, kazarma divarına söykənərək dayanmışdılar. Onları xeyli kənardan izlədim, sonrasa yanlarına getdim.

İki gün heç bir iş görmədik. Üçüncü günün axşamı zabit kursunun başlandığı elan olundu. Açılış mərasimi çox təntənəli keçirildi. Hətta ziyafət də təşkil edilmişdi. Legionun bütün yüksək rütbəli zabitləri buradaydı. Uzun kazarmada Türküstan və Almaniya bayraqları altında nitqlər söyləndi. Türküstanın istiqlalı və Almaniyanın daim var olması şərəfinə sağlıqlar deyildi.

# Конец ознакомительного фрагмента.

Текст предоставлен ООО «ЛитРес».

Прочитайте эту книгу целиком, купив полную легальную версию на ЛитРес.

Безопасно оплатить книгу можно банковской картой Visa, MasterCard, Maestro, со счета мобильного телефона, с платежного терминала, в салоне МТС или Связной, через PayPal, WebMoney, Яндекс.Деньги, QIWI Кошелек, бонусными картами или другим удобным Вам способом.